# "Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 Dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatları

MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| Rəhbərliyin Hesabatı | 2 – 4 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 5 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 6 |
| Kapitalda Dəyişikliklər Haqqında Hesabat | 7 |
| Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat (dolayı metodla) | 8-9 |
| Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat (birbaşa metodla) | 10-11 |
| Tətbiq edilən mühüm mühasibat uçotu prinsipləri və maliyyə hesabatlarina dair izahedici qeydlər | 12-24 |


Bakı şəhəri 2023

## Rəhbərliyin Hesabatı

**Rəhbərlik** 31 Dekabr 2022-ci il tarixində bitən il üzrə öz hesabatını və audit olunmuş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

### Əsas Fəaliyyət:

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyətinin** fəaliyyəti minik avtomobillərinin maliyyə lizinqindən ibarətdir.

### Biznes Əməliyyatlarının İcmalı və Fəaliyyətin Gələcək İnkişaf Perspektivləri:

31 dekabr 2022-ci il tarixində bitən il üzrə Müəssisənin əsas fəaliyyətindən faiz gəlirləri **418202.97 AZN**, həmin il üzrə vergitutmadan əvvəlki mənfəəti **353405.74 AZN** məbləğində, mənfəətlik dərəcəsi **84.51%**, xalis mənfəəti isə **282724.58 AZN** olmuşdur. Əvvəlki ilin müvafiq göstəricilərinə nəzərə salsaq əsas fəaliyyətdən faiz gəlirlərinin **19275.39 AZN,** vergitutmadan əvvəlki mənfəətinin **17444.30** AZN, il ərzində mənfəətlik dərəcəsinin **90.50%** və xalis mənfəətinin **16590.98** AZN olduğunu görürük. Rəhbərlik gələcək ilin nəticələri üçün nikbindir və Müəssisənin fəaliyyətini daha da təkmilləşdirmək üçün strateji planlara malikdir.

| Göstəricilər | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Əsas fəaliyyətdən faiz gəlirləri | 418202.97 | 19275.39 |
| Ümumi mənfəət | 353405.74 | 17444.30 |
| Mənfəətlilik dərəcəsi | 84.51% | 90.50% |
| Xalis mənfəət | 282724.58 | 16590.98 |
| Xalis mənfəətin gəlirə nisbəti | 67.60% | 86.07% |

Müəssisə 2022-ci ili **282724.58 AZN** xalis mənfəətlə başa vurmuşdur.

### Risklərin İdarə olunması və Daxili Nəzarət Sistemi:

Müəssisə davamlı inkişafın təmin olunmasına və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsi prosesi Müəssisənin fəaliyyətinə xas olan risklərin müəyyən edilməsi, qiymətləndirməsi, onlar barədə hesabatların hazırlanması, məqbul risk limitlərinin müəyyən edilməsi vasitəsi ilə onlara nəzarət edilməsi və risklərin azaldılması prosesini əhatə edir. Əsas risklərə kredit, bazar, likvidlik və əməliyyat riskləri daxildir.

Həmçinin, rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Müəssisə idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

**Fəaliyyətin Fasiləsizliyi:**

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən rəhbərlik tərəfindən Müəssisənin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyətinin mövcud olduğu qiymətləndirilmişdir. Rəhbərlik Müəssisənin fasiləsizlik prinsipinə əsasən fəalliyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıra biləcək hər hansı bir sübutla qarşılaşmamışdır.

**Kreditor borclarının ödənilməsi siyasəti:**

Müəssisə təchizatçılarla razılaşdırılmış müddət və şərtlərlə borcun ödənilməsi siyasətini həyata keçirir. Siyasətin məqsədi razılaşma şərtlərinə uyğun olaraq standard ödəniş sisteminin tətbiq edilməsidir.

**Hesabat tarixindən sonrakı hadisələr:**

Rəhbərliyin fikrincə, maliyyə ilinin sonundan maliyyə hesabatlarının hazırlandığı tarixədək olan dövrdə Müəssisəin bitmiş maliyyə ilinin əməliyyatlarına əhəmiyyətli təsir göstərə biləcək hər hansı əhəmiyyətli və qeyri-adi əməliyyat və ya hadisə baş verməmişdir.

**Torpaq, tikili və avadanlıqlar:**

Torpaq, tikili və avadanlıqlar üzrə hərəkət maliyyə hesabatlarına 4 nömrəli qeydində göstərilmişdir.

**Nizamnamə Kapitalı**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 26.12.2022-ci il tarixində verilmiş dövlət reyestrindən çıxarışda Müəssisənin nizamnamə kapitalı **1430100** manat

təsdiq edilmişdir. Müəssisə həmin İdarə tərəfindən 12.06.2020-ci il tarixində 2006222901 eyniləşdirmə nömrəsi (VÖEN) ilə qeydiyyata alınmışdır.

31 Dekabr 2021-ci il tarixində Müəssisənin nizamnamə kapitalı **400100** manat məbləğində olmuşdur.

Nizamnamə kapitalında payların miqdarı aşağıdakı kimidir:

1. İsmayılov Turan Mübariz oğlu - 42.66 faiz, 610100 manat, pul şəklində ;
2. Süleymanlı Ramin Rəhman oğlu - 39.16 faiz, 560000, pul şəklində;
3. Soltanov Rövşən Rafiq oğlu - 17.48 faiz, 250000, pul şəklində;
4. Məmmədov Vüsal Nizami oğlu - 0.7 faiz, 10000, pul şəklində.

**Rəhbərliyin məsuliyyəti**

Azərbaycan Respublikası Mülki qanunvericiliyi Rəhbərlikdən hər bir maliyyə ili üçün Müəssisənin ümumi vəziyyətini və maliyyə ili üçün mənfəət və zərərini düzgün və ədalətli şəkildə təqdim etmək imkanı verən maliyyə-mühasibat uçotunun aparılmasnı tələb edir.
Nəzərdən keçirilən il üzrə audit olunmuş maliyyə hesabatları mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq hazırlanmışdır. Rəhbərlik təsdiq edir ki, Müəssisənin maliyyə vəziyyətini istənilən zaman lazımi dəqiqliklə açıqlıya bilən və onların maliyyə hesabatlarının müvafiq qanunvericiliyin tələblərinə uyğun olmasını təmin edən uyğun və adekvat mühasibat müxabirləşmələri sisteminin doğruluğuna (maintenance) əhəmiyyətli dərcədə diqqət yetirilib. Rəhbərlik həmçinin təsdiq edir ki, maliyyə hesabatlarının ədalətli şəkildə əks etdirməsi və Müəssisənin maliyyə vəziyyətinin və onun əməliyyatlarının nəticələrinin əsaslandırılmış şəkildə təqdim edilməsi məqsədilə uyğun uçot siyasəti seçilmiş və ardıcıllıqla tətbiq edilmişdir.

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyətinin** direktoru
**Məmmədov Vüsal Nizami oğlu**
24 fevral 2023-cü il

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Maliyyə vəziyyəti haqqında hesabat**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2022 | 2021 |
|---|---|---|---|
| **Aktivlər:** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1 | 11 852.72 | 8 637.79 |
| Maliyyə lizinqi əməliyyatları üzrə alacaqlar | 2 | 2 119 679.43 | 408 794.39 |
| Əmlak və avadanlıqlar | 3 | 3 954.32 | 0.00 |
| Digər aktivlər | 4 | 0.00 | 12.12 |
| **Cəmi aktivlər** | | **2 135 486.47** | **417 444.30** |
| **Öhdəliklər:** | | | |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlər | 5 | 346 415.54 | 0.00 |
| Cari mənfəət vergisi öhdəliyi | 6 | 59 411.39 | 853.32 |
| Digər öhdəliklər | 7 | 343.98 | 0.00 |
| **Cəmi öhdəliklər** | | **406 170.91** | **853.32** |
| **Kapital:** | | | |
| Pay kapitalı (nizamnamə kapitalı) | 8 | 1 430 100.00 | 400 100.00 |
| Bölüşdürülməmiş mənfəət | 9 | 299 215.56 | 16 490.98 |
| **Cəmi kapital** | | **1 729 315.56** | **416 590.98** |
| **Cəmi kapital və öhdəliklər** | | **2 135 486.47** | **417 444.30** |

*Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir*

Direktor

**Məmmədov Vüsal Nizami oğlu**

24 fevral 2023-cü il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti LEGION FINANCIAL Limited Liability Company Azerbaijan Republic

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2022 | 2021 |
|---|---|---|---|
| Faiz gəlirləri | 10 | 418 202.97 | 19 275.39 |
| Faiz xərcləri | 11 | -55 425.54 | 0.00 |
| **Xalis faiz gəlirləri** | | **362 777.43** | **19 275.39** |
| Digər gəlirlər | 12 | 7 135.00 | 2 759.85 |
| İnzibati xərclər | 13 | -16 506.69 | -4 590.94 |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | | **353 405.74** | **17 444.30** |
| **Mənfəət vergisi** | | -70 681.16 | -853.32 |
| **Hesabat dövründə xalis mənfəət** | | **282 724.58** | **16 590.98** |

*Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir*

Direktor

**Məmmədov Vüsal Nizami oğlu**

24 fevral 2023-cü il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti LEGION FINANCIAL Limited Liability Company Azerbaijan Republic

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Kapitalda dəyişikliklər haqqında hesabat**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **31.12.2020-ci il tarixinə kapital** | **100.00** | **-100.00** | **0.00** |
| Nizamnamə kapitalının artırılması | 400 000.00 | | |
| İl ərzində xalis mənfəət | | 16 590.98 | **34584.34** |
| **31.12.2021-ci il tarixinə kapital** | **400 100.00** | **16 490.98** | **416 590.98** |
| Nizamnamə kapitalının artırılması | 1 030 000.00 | | |
| İl ərzində xalis mənfəət | | 282 724.58 | **475.60** |
| **31.12.2022-ci il tarixinə kapital** | **1 430 100.00** | **299 215.56** | **1 729 315.56** |

*Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir.*

Direktor

**Məmmədov Vüsal Nizami oğlu**

24 fevral 2023-cü il

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (dolayı metodla)**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

*(Azərbaycan manatı ilə)*

| | **2022** | **2021** |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Mənfəət vergisi xərcindən əvvəl mənfəət | 353 405.74 | 17 444.30 |
| Düzəlişlər: | | |
| Əmlak və avadanlıqlar üzrə köhnəlmə xərcləri | 696.88 | 0.00 |
| Hesablanmış alınacaq faiz borclarında azalmalar/(artımlar) | -35 709.62 | -4 291.15 |
| Hesablanmış ödəniləcək faiz borclarında artımlar/(azalmalar) | 2 582.92 | 0.00 |
| Xərclər üçün ödənilmiş avanslarda azalmalar/(artımlar) | 12.12 | -12.12 |
| Hesablanmış ödəniləcək inzibati xərclərdə artımlar/(azalmalar) | 19.77 | 0.00 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **321 007.81** | **13 141.03** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr:** | | |
| *Əməliyyat aktivlərində azalmalar/(artımlar):* | | |
| Maliyyə lizinqi obyektlərinin alınması | -2 252 750.00 | -415 200.00 |
| Maliyyə lizinqi əməliyyatları üzrə əsas borc yığımları | 577 574.58 | 10 696.76 |
| *Əməliyyat öhdəliklərində artımlar/(azalmalar):* | | |
| Digər öhdəliklər | 324.21 | 0.00 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-1 353 843.40** | **-391 362.21** |
| Ödənilmiş mənfəət vergisi | -12 123.09 | 0.00 |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-1 365 966.49** | **-391 362.21** |
| | | |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Əmlak və avadanlıqlara investisiyalar | -4 651.20 | 0.00 |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-4 651.20** | **0.00** |
| | | |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Nizamnamə kapitalının artırılması | 1 030 000.00 | 400 000.00 |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlər | 795 000.00 | 0.00 |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlərin geri ödənilməsi | -451 167.38 | 0.00 |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **1 373 832.62** | **400 000.00** |

| | | |
|---|---|---|
| Xarici valyuta məzənnələrindəki dəyişikliyin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | 0.00 | 0.00 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artımlar/(azalmalar)** | **3 214.93** | **8 637.79** |
| Hesabat dövrünün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 637.79 | 0.00 |
| **Hesabat dövrünün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **11 852.72** | **8 637.79** |

*Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir.*

Direktor
**Məmmədov Vüsal Nizami oğlu**
24 fevral 2023-cü il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti LEGION FINANCIAL Limited Liability Company Azerbaijan Republic

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat (birbaşa metodla)**

**31 dekabr 2022-ci il tarixində bitən il üzrə**

*(Azərbaycan manatı ilə)*

| | 2022 | 2021 |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Maliyyə lizinqi əməliyyatları üzrə yığılmış faizlər | 382 493.35 | 14 984.24 |
| Digər gəlirlər | 7 135.00 | 0.00 |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlər üzrə ödənilmiş faizlər | -52 842.62 | 0.00 |
| İnzibati xərclərə ödənişlər | -15 777.92 | -1 843.21 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **321 007.81** | **13 141.03** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişmələr:** | | |
| *Əməliyyat aktivlərində azalmalar/(artımlar):* | | |
| Maliyyə lizinqi obyektlərinin alınması | -2 252 750.00 | -415 200.00 |
| Maliyyə lizinqi əməliyyatları üzrə əsas borc yığımları | 577 574.58 | 10 696.76 |
| *Əməliyyat öhdəliklərində artımlar/(azalmalar):* | | |
| Digər öhdəliklər | 324.21 | 0.00 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-1 353 843.40** | **-391 362.21** |
| Ödənilmiş mənfəət vergisi | -12 123.09 | 0.00 |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-1 365 966.49** | **-391 362.21** |
| | | |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Əmlak və avadanlıqlara investisiyalar | -4 651.20 | 0.00 |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **-4 651.20** | **0.00** |
| | | |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Nizamnamə kapitalının artırılması | 1 030 000.00 | 400 000.00 |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlər | 795 000.00 | 0.00 |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlərin geri ödənilməsi | -451 167.38 | 0.00 |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **1 373 832.62** | **400 000.00** |

| | | |
|---|---|---|
| Xarici valyuta məzənnələrindəki dəyişikliyin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | 0.00 | 0.00 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artımlar/(azalmalar)** | **3 214.93** | **8 637.79** |
| Hesabat dövrünün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 637.79 | 0.00 |
| **Hesabat dövrünün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **11 852.72** | **8 637.79** |

*Qeydlər bu maliyyə hesabatalarının tərkib hissəsidir.*

Direktor

**Məmmədov Vüsal Nizami oğlu**

24 fevral 2023-cü il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti LEGION FINANCIAL Limited Liability Company Azerbaijan Republic

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Tətbiq edilən mühüm mühasibat uçotu prinsipləri və maliyyə hesabatlarina dair izahedici qeydlər**
**31 Dekabr 2022-ci il tarixdə bitən il üzrə**

## Hüquqi vəziyyət və əsas fəaliyyət

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 12.06.2020-ci il tarixdə qeydiyyata alınmışdır. Cəmiyyətə Vergi ödəyicisi kimi 2006222901 saylı VÖEN verilmişdir.

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti** Azərbaycan Respublikası Statistika Komitəsində uçot vahidlərinin Dövlət reystrinə daxil edilmişdir.

**"Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**nin əsas fəaliyyət növü minik avtomobillərinin icarəsi və lizinqidir (Azərbaycan Respublikasında iqtisadi faəliyyət növlərinin təsnifatı üzrə kodu: 77110).

Hüquqi şəxslərin dövlət reyestrindən çıxarıçda **Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**nin nizamnamə kapitalı 31.12.2022-ci il tarixinə 1 430 100.00 manat məbləğində təsdiq edilmişdir.

**Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**nin hüquqi ünvanı və faktiki ünvanı aşağıdakı kimidir:
AZ1039, BAKI ŞƏHƏRİ YASAMAL RAYONU, CƏFƏR CABBARLI, ev 609-cu məhəllə, "GLOBUS CENTER" biznes mərkəzi, 14-cü mərtəbə.

Qanuni təmsilçilik, idarəetmə və nəzarət Müəssisənin direktoru Məmmədov Vüsal Nizami oğlu tərəfindən həyata keçirilir.

**Legion Financial" Məhdud Məsuliyyətli Cəmiyyəti**nin bank rekvizitləri aşağıdakı kimidir:
Bank: "Yapı Kredi Bank Azərbaycan" QSC, kod: 509987, VÖEN: 9900009021, SWIFT: KABAAZ22

Müxbir hesab: AZ51NABZ01350100000000012944;

IBAN: AZ40KABA00000000000006339638

VÖEN: 2006222901

**Mühüm uçot siyasətlərinin xülasəsi**

**Hazırlanmanın əsasları:**

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır; maliyyə hesabatları yeni Azərbaycan manatı ilə (AZN) təqdim edilmişdir.

**Uyğunluğun təsdiqi**

Cəmiyyətin maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən təsdiq edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) və Beynəlxal Maliyyə Standartlarına Şərhlər Komitəsi (BMSŞH) tərəfindən təqdim edilmiş təsvir qaydalarına müvafiq qaydada tərtib edilmişdir.

**a) Mühüm uçot qiymətləndirmələri, ehtimalları və fərziyyələri**

Cəmiyyətin mühasibat uçotu işləri "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununun və Beynəlxalq Mühasibat Uçotu Standartlarının tələblərinə uyğun olaraq qurulmuş, mövcud əməliyyatlara mühasibat uçotunun hesablar planı düzgün tətbiq edilərək işlənilmiş, mühasibat uçotu elektron formada 1C 8.3 proqram platformasında aparılmışdır. Bunların əsasında hesabat ilinin hesabatları və hesabatın əlavələri tələb olunan səviyyədə tərtib edilərək Vergi və Maliyyə orqanlarına təqdim olunmuşdur.

Cəmiyyətin Maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələblərinə uyğunlaşdırılaraq hazırlanmışdır.

*Qiymətləndirmələr*

Cəmiyyətin uçot siyasətlərinin tətbiqi prosesində rəhbərlik maliyyə hesablarında tanınmış məbləğlərə çox əhəmiyyətli təsiri olan aşağıdakı qiymətlədirmələri həyata keçirmişdir.

*Əməliyyat gəliri*

Rəhbərlik belə hesab edir ki, gəlirin tanınması üçün əsas amil BMHS 15-də göstərilmişdir: Gəlir əməliyyatla bağlı iqtisadi səmərənin daxil olması ehtimal olunduqda tanınır. Müştəri tərəfindən öhdəlik qəbul edilərsə, iqtisadi səmərə artıq ötürülmüşdür və belə şəraitdə gəlirin tanınması mümkündür.

*Ehtimal və fərziyyələr*

Növbəti maliyyə ili çərçivəsində, aktiv və öhdəliklərin hesabat tarixinə olan balans dəyərində əhəmiyyətli dəyişikliyə gətirib çıxara biləcək, gələcəyi əhatə edən və ehtimallardakı qeyri-müəyyənliyin əhəmiyyətli mənbəyini təşkil edən əsas fərziyyələr aşağıdakılardır:

*Torpaq, tikili və adanlıqlar*

Torpaq, tikili və avadanlıqlar faydalı istifadə müddəti üzrə amortizasiya olunur. Faydalı istifadə müddəti isə torpaq, tikili və avadanlıqların gözlənilən istifadə sxeminə, istismar amillərindən asılı olan fiziki köhnəlməsinə əsasən formalaşır.

*Şübhəli borclar üzrə ehtiyatlar*

Şübhəli borclar üzrə ehtiyatlar debitor borclarını onların geri qaytarılmaması hallarının nəzərə alınması ilə çox göstərilməsindən (şişirdilməməsindən) əmin olmaq üçün bir sıra amillərə

əsaslanaraq müəyyən edilir. Ümüdsüz borclar üzrə ehtiyatlar bütün müştərilər üzrə müxtəlif amillər əsasında yaradılır. Bu amillərə debitor borclarının ümumi keyfiyyəti və onların müddətlər üzrə bölgüsü və müştərinin maliyyə vəziyyətinin kredit ödəmə qabiliyyəti cəhətdən qiymətləndirilməsi daxildir. Həmçinin, şirkət müştərinin özünün öhdəliklərini ödəmə qabiliyyətinin olmamasını müəyyən edərsə, məsələn, müştərinin əməliyyat nəticələrində və maliyyə vəziyyətində pisləşmə müşahidə olunarsa, bu zaman həmin müşahidələr üzrə xüsusi ehtiyatlar yaradır.

**b) Torpaq, tikili və avadanlıqlar**

**i. İlkin tanınma və qiymətləndirmə**

Əmlak və avadanlıq obyektləri ilkin dəyərlə toplanmış amortizasiya və hər hansı qiymətdəndüşmə zərərləri çıxılmaqla uçota alınır.

Əgər əmak və avadanlıq obyektlərinin əhəmiyyətli hissələrinin müxtəlif faydalı istifadə müddətləri olarsa, onlar əmlak və avadanlıqlarının fərqli obyektləri kimi uçota alınır.

Əmlak və avadanlıqların silinməsindən yaranan hər hansı gəlir və zərərlər silinmədən yaranan gəlirlərin onun qalıq dəyəri ilə müqayisəsi ilə müəyyən edilir və mənfəət və ya zərərdə xalis olaraq tanınır.

**ii. Sonrakı xərclər**

Əmlak və avadanqlıqların hissələrinin dəyişdirilməsi xərcləri əgər həmin hissənin dəyərini etibarlı şəkildə ölçmək mümkündürsə və gələcək iqtisadi səmərənin Cəmiyyətə daxil olması ehtimal edilərsə ilkin dəyərlə kapitallaşdırılaraq əmlak və avadanlıq kimi uçota alınır.

**iii. Amortizasiya**

Əmlak və avadanlıqlar onlar qurulduqdan və istifadəyə hazır olduğu tarixdən və ya Müəssisənin özü tərəfindən tikildiyi halda əmlakın tikintisi tamamlanıb istifadəyə hazır olduqdan sonra amortizasiya olunur. Amortizasiya xətti üsulla hesablanır.

Tikili və avadanlıqların cari və müqayisə edilən dövr üzrə ehtimal edilən faydalı istifadə müddətləri aşağıdakı kimidir:

- Mebel və avadanlıqlar - 4 il;
- Kompyuter və rabitə avadanlıqları - 4 il

Amortizasiya metodu, faydalı istifadə müddətləri və son qalıq dəyəri hər bir hesabat dövründə nəzərdən keçirilir və lazım gələrsə müvafiq düzəlişlər edilir.

**İnvestisiya mülkiyyətində yenidən təsnifləşdirmə**

Mülkiyyətdən investisiya mülkiyyətinə dəyişdikdə, əmlak ədalətli dəyərlə yenidən qiymətləndirilir və müvafiq olaraq yenidən təsnif edilir. Bu yenidən ölçülmədən yaranan hər hansı gəlir əvvəllər tanınmış qiymətdəndüşmə zərərləri çıxılmaqla digər məcmu gəlirlərdə tanınmış və yenidənqiymətləndirmə ehtiyatında tanınmış ehtiyatlar çıxılmaqla mənfəət və zərərdə tanınır. Hər hansı zərər mənfəət və ya zərərdə tanınır. Lakin, həmin əmlak üçün

yenidən qiymətləndirmə ehtiyatında tanındığı qədər digər məcmu gəlirlərdə tanınır və kapitalda yenidənqiymətləndirmə ehtiyatını azaldır.

**c) Aktivlərin qiymətdən düşməsi**

Əgər hadisə və şəraitdəki dəyişikliklər göstərsə ki, aktivin balans dəyəri bərpa edilə bilinmir, o zaman həmin aktiv qiymətdən düşməsinin olub-olmamasının müəyyən olunması üçün nəzərdən keçirilir. Əgər belə göstərici mövcuddursa, həmin aktivin ehtimal edilən bərpa dəyəri müəyyən olunur, aktivin balans dəyəri onun bərpa olunan dəyərindən çox olarsa, o zaman bu fərq mənfəət və ya zərər haqqında hesabatda qiymətdəndüşmə zərəri kimi tanınır.

**d) Vergitutma**

Mənfəət vergisi üzrə xərclərə cari və təxirə salınmış vergi xərcləri daxildir. Vergitutulan mənfəət mənfəət və ya zərər haqqında hesabatda göstərilən uçot mənfəətindən fərqlənir, çünki uçot mənfəətinə gələcək illərdə vergiyə cəlb olunacaq və ya çıxarılacaq gəlir və ya xərc maddələrini, həmçinin heç vaxt vergiyə cəlb olunmayacaq və ya əvəzləşdirilməyəcək maddələr daxildir. Cəmiyyətin cari vergi xərcləri hesabat tarixinə qüvvədə olan vergi dərəcəsi ilə hesablanmışdır.

Təxirə salınmış mənfəət vergisi maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə həmin aktiv və öhdəliklərin vergitutma məqsədləri üçün istifadə edilən vergitutma bazası arasındakı fərq üzrə ödənilməli və ya bərpa edilən vergi məbləğidir. Təxirə salınmış vergi öhdəlikləri ümumilikdə bütün vergitutulan müvəqqəti fərqlər üçün və təxirə salınmış vergi aktivləri isə yalnız çıxılan müvəqqəti fərqlərlə bağlı gələcəkdə bərpa olunmalı vergiyə cəlb olunan mənfəət səviyysində tanınır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir.

Müəssisənin hesabat dövründə və daha əvvəlki hesabat dövrlərində aktiv və öhdəliklərin MHBS üzrə aparılmış uçot əsasında hesablanmış balans dəyəri ilə həmin aktiv və öhdəliklərin vergitutma bazası arasında müvəqqəti fərqlər mövcud olmadığına görə təxirə salınmış vergi məbləğləri yaranmır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq Cəmiyyətin fəaliyyətində tətbiq edilən müxtəlif vergi növləri vardır. Bu vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər haqqında hesabatda əks olunmuşdur.

**e) Maliyyə icarəsi**

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Mülkiyyət hüququ həm keçə,həmdə keçməyə bilər. İcarənin maliyyə və əməliyyat icarəsi olması icarə müqaviləsinin formasından deyil əməliyyatın məzmunundan asılıdır. İcarə aşağıdakı şərtlər yerinə yetirildiyi halda, maliyyə icarəsi kimi təsnifləşdirilmişdir:

- İcarə müqaviləsinin sonunda icarəyə verilmiş aktiv üzrə mülkiyyət hüququ icarəçiyə keçir;

- İcarəçinin aktivi ədaltli dəyərindən əhəmiyyətli dərəcə aşağı olacağı gözlənilən qiymətə almaq hüququ həmin hüququn reallaşma tarixinə mövcuddur və icarəçinin həmin hüquqdan istifadə edəcəyini icarə müddətinin əvvəlində əsaslandırılmış şəkildə ehtimal etmək mümkündür;
- İcarə müddəti, hətta əgər mülkiyyət hüququ ötürülmürsə belə, aktivin faydalı istifadə müddətinin əhəmiyyətli dərəcədə böyük hissəsini təşkil edir;
- İcarə şərtlərinin qəbul edilməsi tarixində minimal icarə ödnişlərinin diskontlaşdırılmış dəyəri icarəyə verilən aktivin heç olmasa ədalətli dəyərinə bərabərdir; və
- İcarədə olan aktiv elə səciyyəvi xüsusiyyətə malikdir ki, o xüsusi modifikasiya edilmişdir və yalnız hazırki icarəçi bu aktivdən istifadə edə bilər.

İcarə müqaviləsinin başlanması tarixində Cəmiyyət icarədar kimi maliyyə icarəsini balansda müqavilə tarixinə müqavilə obyektinin ədalətli dəyəri və minimal icarə ödənişlərinin diskontlaşdırılmış dəyərindən az olanının məbləğində aktiv və öhdəlik tanıyır. Daha sonra minimal icarə ödənişləri maliyyə məsrəfləri və ödənilməmiş öhdəliklərin azalması arasında bölüşdürülür. Şərti icarə ödənişləri onların yarandığı dövrdə xərc kimi tanınır. Maliyyə icarəsinə götürülmüş aktivlər üzrə amortizasiya siyasəti mülkiyyətdə olan torpaq, tikili və avadanlıqların amortizasiyası siyasəti ilə eynidir. Maliyyə icarəsi ödənişlərinin faiz hissəsi aid olduğu dövrdə mənfəət və ya zərər haqqında hesabatda əks olunur.

**f) Gəlirin tanınması**

Maliyyə icarəsi üzrə faiz gəlirləri MHBS 16 əsasında tanınır. Müəssisə birbaşa maliyyələşmə qaydasında lizinq əməliyyatları apardığı üçün hər bir müqqavilə üzrə çəkilən əlavə xərclər lizinq üzrə xalis investisiya məbləğinə daxil edilir. Maliyyə lizinqi üzrə faiz gəlirləri müqavilə üzrə təyin edilmiş dövri ödənişləri müqavilənin başlanğıcında mövcud olan xalis investisiya məbləğinə çevirən sabit faiz dərəcəsini (effektiv faiz dərəcəsi) lizinq üzrə xalis investisiya məbləğinə tətbiq edilməklə hesablanır.

**g) Maliyyə xərcləri**

Cəmiyyətin maliyə xərclərinə başqa maliyyə təşkilatlarından alınmış kreditlər üzrə hesablanmış faiz xərcləri aiddir. Faiz xərcləri də faiz gəlirləri kimi effektiv faiz metodundan istifadə etməklə tanınır.

**h) Əmək fəaliyyətinin başa çatmasından sonra mükafatlar**

Əmək fəaliyyətinin başa çatmasına görə mükafatlar hesabat tarixinə işçilərin iş stajına və əmək haqqına əsasən istifadə edilməmiş məzuniyyət günləri üçün hesablanan kompensasiyadan və bəzi hallarda işdənçıxma müavinətlərindən ibarətdir. İstifadə edilməmiş məzuniyyət günləri üçün kompensasiya həmin hüquqlar yarandıqca, işdənçıxma müavinətləri isə cari hesabat dövründə xərc kimi tanınır.

**i) Qiymətləndirilmiş ehtiyatlar**

Qiymətləndirilmiş ehtiyatlar keçmiş hadisələrin nəticəsi olan öhdəliklərə (hüquqi və konstruktiv) sahib olduqda öhdəliyin yerin yetirilməsi üçün iqtisadi səmərələri təcəssüm

etdirən resursların tələb olunacağı ehtimal olunduqda və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə öhdəlik kimi tanınır.

**j) Xarici valyutalar**

Xarici valyutada həyata keçirilən əməliyyat ilkin tanınma zamanı əməliyyat valyutasında, xarici valyutada olan məbləğə əməliyyat valyutası ilə xarici valyuta arasında əməliyyatın keçirildiyi tarixdə mövcud olan spot məzənnəsini tətbiq etməklə uçota alınır.

Balans heasabatı tarixinə xarici valyuta ilə olan monetar maddələr hesabat tarixinə məzənnədən istifadə etməklə yerli valyutaya çevrilir. Məzənnə fərqlərindən yaranan gəlir və xərclər mənfəət və ya zərər haqqında heasabatda əks olunur.

Cəmiyyət tərəfindən maliyyə hesabatlarının hazırlanması üçün hesabat dövrünün sonunda istifadə edilmiş məzənnələr aşağıdakı kimi olmuşdur.

1 USD = 1,7000 AZN

1 EUR = 1.8114 AZN

1 RUB = 0,0230 AZN

Xarici valyuta ilə olan qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən yerli valyutaya çevrilir.

**k) Maliyyə alətləri**

Müəssisə maliyyə aktivləri və ya öhdəliklərini maliyyə hesabatlarında yalnız maliyyə alətinin müqavilə müddəalarına tərəf olan kimi tanıyır.

**i. Sonrakı tanınma və qiymətləndirmə**

Maliyyə alətlərinin təsnifatı ilkin tanınmada onların müqavilə şərtlərindən və həmin alətləri idarə etmək üçün biznes modelindən asılıdır. Maliyyə alətləri ilk öncə ədalətli dəyərlə ölçülür və *ədalətli dəyərinin dəyişilməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və maliyyə öhdəlikləri* istisna olmaqla, əməliyyat xərcləri həmin məbləğə əlavə edilir və ya bu məbləğdən çıxılır.

Müəssisə maliyyə aktivlərini aktivlərin idarə edilməsi üçün biznes modelindən və aktivlərin müqavilə şərtlərindən asılı olaraq aşağıdakı kimi təsnifləşdirir:

- Amortizasiya edilmiş dəyərlə tanınan maliyyə aktivləri - bu aktivlər sonradan effektiv faiz metodu istifadə edilərək amortizasiya olunmuş dəyərdə əks etdirilir. Amortizasiya olunmuş dəyərlə tanınan maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərləri tanınır. Tətbiqin dayandırılması ilə bağlı mənfəət və ya zərər mənfəət zərərdə tanınır;
- Ədalətli dəyərlə ölçülən və ədalətli dəyərinin dəyişilməsi digər məcmu gəlirlərdə tanınan maliyyə aktivləri;
- Ədalətli dəyərlə ölçülən və ədalətli dəyərinin dəyişilməsi mənfəət və ya zərərdə tanınan maliyyə aktivləri - bu aktivlər sonradan ədalətli dəyərlə ölçülür. Hər hansı bir faiz və ya dividend gəlirləri də daxil olmaqla xalis mənfəət və ya zərərlər mənfəət və ya zərərdə tanınır.

Müəssisə faiz xərci yaradan digər maliyyə təşkilatlarından alınmış kreditləri amortizasiya olunmuş dəyərdə uçota alır.

Maliyyə öhdəlikləri amortizasiya edilmiş dəyərdə və ya dəyişilməsi mənfəət və ya zərərdə tanınmaqla ədalətli dəyərdə ölçülür. Maliyyə öhdəliyi, alqı-satqı üçün saxlanılan kimi təsnif edildikdə, törəmədirsə və ya ilkin tanınma zamanı təyin olunarsa, dəyişilməsi mənfəət və ya zərərdə tanınmaqla ədalətli dəyərdə əks olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirilir. Bu maliyyə öhdəlikləri ədalətli dəyərlə ölçülür və hər hansı faiz xərcləri daxil olmaqla xalis mənfəət və ya zərərlər mənfəət və ya zərərdə əks etdirilir. Digər maliyyə öhdəlikləri sonradan effektiv faiz metodunu istifadə edərək amortizasiya olunmuş dəyərlə ölçülür. Faiz xərcləri və xarici valyuta məzənnələri üzrə mənfəət və ya zərərlər mənfəət və ya zərərdə tanınır. Tətbiqin dayandırılması zamanı yaranan hər hansı mənfəət və ya zərər də mənfəət və ya zərərdə tanınır.

**ii. Tanınmanın dayandırılması**

Maliyyə aktivlərinin əhəmiyyətli dərəcədə bütün riskləri və faydaları digər tərəfə köçürüldükdə maliyyə aktivinin tanınması dayandırılır.

Cəmiyyət, maliyyə vəziyyəti haqqında hesabatda tanınmış aktivləri köçürən əməliyyatlara daxil olur, lakin köçürülmüş aktivlərin bütün və ya əsaslı şəkildə bütün risklərini və mükafatlarını saxlayır. Bu hallarda, köçürülmüş aktivlər tanınmır.

Maliyyə öhdəliklərinin tanınması Cəmiyyət müqavilə öhdəliklərini yerinə yetirildikdə və ya həmin öhdəliklər ləğv olunduqda dayandırılır.

Maliyyə öhdəliyinin tanınmasının dayandırılması nəticəsində tanınmanın dayandırılması anına olan balans dəyəri və ödənilmiş ödəniş arasındakı fərq mənfəət və ya zərərdə tanınır.

**iii. Əvəzləşdirmə**

Maliyyə aktivləri və maliyyə öhdəliklərinin əvəzləşdirilərək xalis əsasda tanınması yalnız məbləğləri xalis əsasda müəyyən etmək üçün qanuni olaraq tətbiq edilə bilən hüquqlar mövcud olduqda və tərəflərin yalnız xalis əsasda hesablaşmaq niyyəti mövcud olduqda həyata keçirilir.

**l) Nağd pul vəsaitləri və onaların ekvivalentləri**

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması məqsədi ilə nağd pul vəsaitləri və onların ekvivalentlərinə kassa, bank hesablarındakı pullar və ödənilməsi dövrü üç ay və daha az müddətədək olan və istifadəsinə məhdudiyyət qoyulmayan depozit hesabları aid edilir.

**m) Qeyri-maddi aktivlər**

**i.Tanınma və ölçülmə**

Cəmiyyət tərəfindən əldə ediləcək qeyri-maddi aktivlər, yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə ölçülür.

**ii. Sonrakı ölçülmə**

Sonrakı xərclər yalnız aidiyyəti olan aktivdə yaranan gələcək iqtisadi səmərəni artıran zaman kapitallaşdırılır. Daxili olaraq yaradılmış qudvil və brendlərə xərclər daxil olmaqla, bütün digər xərclər baş verdikdə mənfəət və ya zərərdə tanınır.

**iii. Köhnəlmə**

Qeyri-maddi aktivlər ehtimal edilən faydalı istifadə müddətinə əsasən düz xətt metodundan istifadə edilməklə amortizasiya edilir və mənfəət və zərərdə tanınır.

Amortizasiya metodları, faydalı istifadə müddətləri və qalıq dəyərləri hər hesabat dövründə yenidən nəzərdən keçirilir və müvafiq olaraq düzəldilir.

**n) Risklərin idarə edilməsi bazası**

Cəmiyyətdə maliyyə risklərinin idarə edilməsi funksiyasına maliyyə riskləri, əməliyyat riskləri və hüquqi risklərinin idarə edilməsi daxildir. Maliyyə risklərinə bazar riski (valuta riski, faiz dərəcəsi riski və digər qiymət riski), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədləri risklər üçün limitlər qoymaq və daha sonra riskilərin qoyulmuş limitlər daxilində olmasını təmin etməkdir. Əməliyyat və hüquqi risklərin idarə edilməsi funksiyasının əsas məqsədi daxili siyasət və prosedurların lazımi qaydada fəaliyyətini təmin etməklə əməliyyat və hüquqi riskləri minimuma endirməyi təmin etməkdir.

**Valyuta riski**

Valyuta riski, valyuta məzənnələrinin dəyişməsi səbəbindən maliyyə alətlərinin dəyərinin dəyişə biləcəyi riskidir. Xarici valyutada aktiv və öhdəliklərin açıq mövqeyi valyuta riskinə səbəb olur.

**Kapitalın idarə edilməsi riski**

Cəmiyyət ümumi kapitalı payçı kapitalı (nizamnamə kapitalı) və bölüşdürülməmiş mənfəətdən ibarətdir. Cəmiyyətin kapitalın idarə olunmasında məqsədləri payçılar üçün qaytarılmaların və digər maraqlı tərəflər üçün mənfəətin təmin edilməsi və kapitalın xərclərini azaltmaq üçün kapitalın optimal strukturunu təmin etməkdir etməkdir. Cəmiyyətin kapitalının idarə edilməsi üzrə hər hansı qanuni əmsal tələbləri yoxdur.

**o) Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər - bazar iştirakçıları arasındakı qiymətləndirmə tarixində təşəkkül tapan qiymətlər əsasında müəssisənin aktivin satılmasından əldə edə biləcəyi və ya öhdəliyin ötürülməsi üçün ödəməli olacağı məbləğdir. İlk növbədə aktiv bazarda təşəkkül tapan qiymətlərə istinad olunur. Aktiv və ya öhdəlik üzrə əməliyyatlar qiymətlər haqda məlumatların davamlı şəkildə təmin edilməsi üçün kifayət qədər tezliklə və həcmdə aparıldığı halda bazar aktiv olaraq qəbul edilir. Aktiv bazar olmadıqda Cəmiyyət üçün ən faydalı bazarda formalaşan qiymətlər əsas götürülür. Bir öhdəliyin ədalətli dəyəri onun yerinə yetirilməməsi riskini əks etdirir.

Maliyyə alətinin ilkin tanınmasında ədalətli dəyərinin ən yaxşı göstəricisi adətən əməliyyatın qiymətidir.

**Əməliyyat riskləri**

**Vergi qanunverciliyi**

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fiskal fəaliyyət dövrü yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Cəmiyyətin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqeləri qorunacaq və Cəmiyyətin potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır. Müvafiq olaraq, 31 dekabr 2022-ci il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

**1. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

| Göstəricilər (2022) | 01.01.2022-ci il tarixinə olan qalıq (AZN) | Dövr ərzində daxilolmalar (AZN) | Dövr ərzində xaricolmalar (AZN) | 31.12.2022-ci il tarixinə olan qalıq (AZN) |
|---|---|---|---|---|
| "Yapı Kredi Bank Azərbaycan" QSC-də cari hesab | 8 637.79 | 2 860 304.54 | 2 857 089.61 | 11 852.72 |

| Göstəricilər (2021) | 01.01.2021-ci il tarixinə olan qalıq (AZN) | Dövr ərzində daxilolmalar (AZN) | Dövr ərzində xaricolmalar (AZN) | 31.12.2021-ci il tarixinə olan qalıq (AZN) |
|---|---|---|---|---|
| "Yapı Kredi Bank Azərbaycan" QSC-də cari hesab | 0.00 | 425 681.00 | 417 043.21 | 8 637.79 |

**2. Maliyyə lizinqi əməliyyatları üzrə alacaqlar**

| Göstəricilər (2022) | Maliyyə lizinqi üzrə əsas borc alacaqları | Maliyyə lizinqi üzrə faiz borcu alacaqları | Maliyyə lizinqi üzrə cəmi alacaqlar |
|---|---|---|---|
| 01.01.2022-ci il tarixinə qalıq | 404 503.24 | 4 291.15 | 408 794.39 |
| İl ərzində yeni verilmiş maliyyə lizinqləri | 2 252 750.00 | | 2 252 750.00 |
| İl ərzində hesablanmış faizlər | | 418 202.97 | 418 202.97 |
| Ödəmə qabiliyyəti olmayan lizinqalanlar tərəfindən təhvil verilən lizinq obyekti müqabilində silinən borclar | -173 186.71 | -4 016.29 | -177 203.00 |
| Ödəmə qabiliyyəti olmayan lizinqalanlar tərəfindən təhvil verilmiş lizinq obyektlərinin yenidən maliyyə lizinqinə verilməsi | 177 203.00 | | 177 203.00 |
| İl ərzində lizinq ödənişləri | -577 574.58 | -382 493.35 | -960 067.93 |
| **31.12.2022-ci il tarixinə qalıq** | **2 083 694.95** | **35 984.48** | **2 119 679.43** |

| Göstəricilər (2021) | Maliyyə lizinqi üzrə əsas borc alacaqları | Maliyyə lizinqi üzrə faiz borcu alacaqları | Maliyyə lizinqi üzrə cəmi alacaqlar |
|---|---|---|---|
| **01.01.2021-ci il tarixinə qalıq** | **0.00** | **0.00** | **0.00** |
| İl ərzində yeni verilmiş maliyyə lizinqləri | 415 200.00 | | 415 200.00 |
| İl ərzində hesablanmış faizlər | | 19 275.39 | 19 275.39 |
| İl ərzində lizinq ödənişləri | -10 696.76 | -14 984.24 | -25 681.00 |
| **31.12.2021-ci il tarixinə qalıq** | **404 503.24** | **4 291.15** | **408 794.39** |

## 3. Torpaq, tikili və avadanlıqlar

| *İlkin dəyər* | Mebel və avadanlıqlar AZN | Kompyuter və rabitə avadanlıqları AZN | Cəmi AZN |
|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixə** | **0.00** | **00.00** | **0.00** |
| İl ərzində daxilolmalar | 2 903.20 | 1 748.00 | 4 651.20 |
| İl ərzində silinmələr | 0.00 | 0.00 | 0.00 |
| İl ərzində təqdim olunub | 0.00 | 0.00 | 0.00 |
| **31 dekabr 2022-ci il tarixinə** | **2 903.20** | **1 748.00** | **4 651.20** |

| *Köhnəlmə* | Mebel və avadanlıqlar AZN | Kompyuter və rabitə avadanlıqları AZN | Cəmi AZN |
|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixə** | **0.00** | **00.00** | **0.00** |
| İl ərzində hesablanmış köhnəlmə | -449.24 | -246.64 | -696.88 |
| İl ərzində silinmələr | 0.00 | 0.00 | 0.00 |
| İl ərzində təqdim olunub | 0.00 | 0.00 | 0.00 |
| **31 dekabr 2022-ci il tarixinə** | **-449.24** | **-246.64** | **-696.88** |

## 4. Digər aktivlər

| Göstəricilər (2022) | Dövlət Sosial Müdafiə Fondu ilə Hesablaşmalar (AZN) | İcbari Tibbi Sığorta Fondu ilə hesablaşmalar (AZN) | Cəmi (AZN) |
|---|---|---|---|
| **01.01.2022-ci il tarixinə qalıq** | **10.14** | **1.98** | **12.12** |
| 2022-ci il ərzində ödənilmişdir | -10.14 | -1.98 | -12.12 |
| **31.12.2022-ci il tarixinə qalıq** | **0.00** | **0.00** | **0.00** |

## 5.Digər maliyyə təşkilatlarından alınmış kreditlər

| Göstəricilər (2022) | Əsas məbləğ (AZN) | Hesablanmış faizlər (AZN) | Cəmi (AZN) |
|---|---|---|---|
| **01.01.2022-ci il tarixinə qalıq** | **0.00** | **0.00** | **0.00** |
| 2022-ci il ərzində alınmış kreditlər | 795 000.00 | 0.00 | 795 000.00 |
| 2022-ci il ərzində hesablanmış faizlər | 0.00 | 55 425.54 | 55 425.54 |
| 2022-ci il ərzində geri ödənişlər | -451 167.38 | -52 842.62 | -504 010.00 |
| **31.12.2022-ci il tarixinə qalıq** | **343 832.62** | **2 582.92** | **346 415.54** |

Cəmiyyətin 2021-ci il ərzində alınmış krediti olmamışdır, 2022-ci il ərzində yalnız "Finoko" Bank Olmayan Kredit Təşkilatı ASC-dən kredit almışdır.

### 7. Digər öhdəliklər

| Göstəricilər (2022) | Sığorta Şirkətləri tərəfindən lizinqalanlara ödənilmiş sığorta ödənişləri (AZN) | Əmlak vergisi üzrə büdcə qarşısında öhdəlik (AZN) | Cəmi (AZN) |
|---|---|---|---|
| **01.01.2022-ci il tarixinə qalıq** | **0.00** | **0.00** | **0.00** |
| 2022-ci il ərzində Müəssisəyə ödənilmiş lizinqalanlara çatacaq sığorta ödənişləri | 41 758.27 | 0.00 | 41 758.27 |
| 2022-ci il ərzində Müəssisə tərəfindən lizinqalanlara ödənilmiş sığorta ödənişləri | -41 434.06 | 0.00 | -41 434.06 |
| 2022-ci il ərzində hesablanmış əmlak vergisi | 0.00 | 19.77 | 19.77 |
| **31.12.2022-ci il tarixinə qalıq** | **324.21** | **19.77** | **343.98** |

### 10, 11 Xalis faiz gəlirləri (AZN)

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Maliyyə lizinqi əməliyyatları üzrə faiz gəlirləri | 400 061.39 | 15 123.39 |
| Maliyyə lizinqi əməliyyatları üzrə komissiya haqları | 15 675.00 | 4 152.00 |
| Maliyyə lizinqi əməliyyatları üzrə alınmış peniya məbləğləri | 2 466.58 | 0.00 |
| **Cəmi faiz gəlirləri** | **418 202.97** | **19 275.39** |
| Digər maliyyə təşkilatlarından alınmış kreditlər üzrə faiz xərcləri | -55 425.54 | 0.00 |
| **Xalis faiz gəlirləri** | **362 777.43** | **19 275.39** |

### 12. Digər gəlirlər (AZN)

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Təsisçidən əvəzsiz daxilolmalar | 7 135.00 | 2 759.85 |
| **Cəm** | **7 135.00** | **2 759.85** |

**13.İnzibati xərclər**

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | -8 521.50 | -4 536.75 |
| İcarə haqqı | -6 853.44 | 0.00 |
| Əmlak və avadanlıqların köhnəlmə xərcləri | -696.88 | 0.00 |
| Bank xərcləri | -317.73 | -53.71 |
| Rabitə xərcləri | -85.30 | 0.00 |
| Əmlak vergisi xərci | -19.77 | 0.00 |
| Sığorta xərcləri | -12.00 | 0.00 |
| Ödənilmiş peniyalar, maliyyə sanksiyaları | -0.07 | -0.48 |
| **Cəm** | **16 506.69** | **4 590.94** |

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsiri olan hadisə baş verməmişdir.

Direktor

**Məmmədov Vüsal Nizami oğlu**

24 fevral 2023-cü il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti LEGION FINANCIAL Limited Liability Company Azerbaijan Republic